**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVRİAT PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 050201 – FİLOLOGİYA ("Alman dili və ədəbiyyatı"; "Fransız dili və ədəbiyyatı")**

# FƏNN: İPFS – B 02 – "MÜASİR AZƏRBAYCAN DİLİ" (III kurs)

**Bakı – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVRİAT PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 050201 – FİLOLOGİYA (“Alman dili və ədəbiyyatı”; “Fransız dili və ədəbiyyatı”)**

# FƏNN: İPFS – B 02 – “MÜASİR AZƏRBAYCAN DİLİ” (III kurs)

**Bakı – 2016**

**Tərtib edənlər:**

**Həbibli Reyhan Yusif qızı – Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru**

**Əlizadə Mehriban Samət qızı – Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru**

**Rəy verənlər:**

**Mikayılova Əzizə Nurqələm qızı – AzTU-nun Azərbaycan dili və pedaqogika kafedrasının professoru, filologiya elmləri doktoru**

**Vəliyeva Məftunə Vaqif qızı – BDU-nun Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru**

# İZAHAT VƏRƏQİ

İPFS – B 02 – "Müasir Azərbaycan dili" fənni "Filologiya" (050201 – "Alman dili və ədəbiyyatı"; "Fransız dili və ədəbiyyatı") ixtisası alan tələbələrə III kursda 60 saat (30 saat mühazirə, 30 saat məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik auditoriya məşğələləridir. Məşğələlərin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm icbari sərbəst işi də böyük əhəmiyyətə malikdir.

## Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – tələbələri müasir Azərbaycan ədəbi dilinin müasir vəziyyəti ilə tanış etmək, onlara Azərbaycan dilçiliyinin şöbələri barədə ali məktəb proqramının müəyyən etdiyi həcmdə biliklər vermək, müasir Azərbaycan dilinin fonetik, leksik, qrammatik quruluşunu fərqli kommunikativ məqsədlərlə istifadə olunan müxtəlif səviyyəli funksional vahidlər sistemi kimi nəzərdən keçirməkdir.

**Kursun vəzifələri:**

1) Müasir Azərbaycan dilinin fonetik, leksik, söz yaradıcılığı, qrammatik sistemlərinin fəaliyyəti haqqında müasir elmi konsepsiyalara əsaslanan bitkin təsəvvür yaratmaq;

2) Tələbələrdə Azərbaycan dilçiliyindəki əsas anlayışlar, terminlər və konsepsiyalar haqqında təsəvvür formalaşdırmaq;

3) Tələbələrin fonetik, leksik və morfoloji vahidlərin struktur-semantik və kommunikativ-praqmatik aspektlərdə təhlili bacarıqlarına yiyələnməsi üçün şərait yaratmaq;

4) Müasir Azərbaycan dilinin mövcud qrammatik normaları haqqında biliklərdən istifadə etməyi öyrətmək; qrammatik və leksik vahidlərin semantik və kommunikativ imkanlarını izah

etmək; lüğətlərdən, sorğu və normativ nəşrlərdən istifadə metodikasına yiyələnməyi təmin etmək.

## Fənnin tədris prosesində yeri

İPFS – B 02 “Müasir Azərbaycan dili” fənni tələbələrin müasir Azərbaycan ədəbi dilinin fonetik, leksik, qrammatik sistemi barədə biliklər qazanması üçün nəzərdə tutulmuşdur. O, mütəxəssislərin ümumi peşə hazırlığı üzrə fənlər silsiləsini təşkil edən fənlərdən biridir. Onun əsas prinsipləri Azərbaycan dilinin hər bir tərkib hissəsinə dil sisteminin çoxsəviyyəli bölmələrindən biri kimi yanaşma və dilin fonetik, leksik, qrammatik sisteminin funksional fəaliyyətinin təsviridir.

## Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:

– müasir Azərbaycan dilinin nəzəriyyəsi sahəsində mövcud olan əsas müddəa və konsepsiyaları, baza anlayışlarını və terminologiyanı;

– fonetika, leksika, söz yaradıcılığı, qrammatika və onlardan praktik istifadə sahəsində, nitqin funksional üslubları sistemində Azərbaycan ədəbi dilinin normalarını;

– əsas fonetik qanunları, sözyaratma qaydaları və üsullarını, yazılı və şifahi nitqdə müxtəlif leksik qrupların işlənmə xüsusiyyətlərini;

– linqvistik tədqiqatın əsas metodlarını;

– müasir informasiya texnologiyalarından istifadə etməklə dil faktlarının toplanılması və təhlilinin həm ənənəvi, həm də müasir metod və üsullarını.

**Bacarmalıdır:**

– səsin, sözün, söz birləşməsinin, sintaqmın, hökmün, mətnin linqvistik təhlilini aparmağı;

– müasir Azərbaycan dilinin normalarından və nitqin funksional üslubları sistemindən praktik şəkildə istifadə etməyi;

– fonetika, leksika, söz yaradıcılığı, qrammatika sahəsində qazanılan bilikləri öz elmi-tədqiqat fəaliyyətində tətbiq etməyi;

– qazanılmış nəzəri və praktik bilikləri ünsiyyət prosesində tətbiq etməyi;

– zəruri informasiyanı təhlil etməyi, sistemləşdirməyi və ümumiləşdirməyi;

– elmi ədəbiyyatla işləməyi, müasir audio-, video- və multimediya vasitələrindən istifadə etməyi;

– sosial əhəmiyyətini dərk edərək özünü məqsədyönlü şəkildə gələcək peşəsinə hazırlamağı.

**Yiyələnməlidir:**

– fənnin anlayış və kateqorial aparatına, tədris-metodiki və elmi ədəbiyyatla işləmək vərdişlərinə;

– şifahi və yazılı formalarda ünsiyyət bacarığına;

– dil faktlarının toplanılması və analizi, bədii mətnin linqvistik təhlili və izahı vərdişlərinə;

– müxtəlif tipli informasiyanın müstəqil şəkildə axtarışı, işlənib hazırlanması və istifadəsi vərdişlərinə.

– zəruri informasiyanın toplanması zamanı təhlil, sintez və ümumiləşdirmə bacarığına;

– biliklərin müstəqil şəkildə qazanılmasının metod və üsullarına;

– Azərbaycan dilinin nəzəriyyəsi sahəsində əldə olunan biliklərdən öz elmi-tədqiqat fəaliyyətində istifadə üsullarına.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | mühazirə | seminar |
| 1 | Fonetikanın ümumi məsələləri. Azərbaycan dilinin saitlər və samitlər | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | sistemi | | | |
| 2 | Fonetik hadisələr və qanunlar. Heca. Vurğu. İntonasiya | 4 | 2 | 2 |
| 3 | Azərbaycan dilinin orfoepiya və orfoqrafiyası | 4 | 2 | 2 |
| 4 | Leksikologiyanın predmeti. Söz leksik vahid kimi. Forma və məzmunca söz qrupları | 4 | 2 | 2 |
| 5 | Azərbaycan dilinin mənşəcə və üslubca leksikası | 4 | 2 | 2 |
| 6 | Azərbaycan dilinin aktiv və passivliyinə, istifadə dairəsinə görə leksikası | 4 | 2 | 2 |
| 7 | Azərbaycan dilinin onomastikası və frazeologiyası. Leksikoqrafiya | 4 | 2 | 2 |
| 8 | Söz yaradıcılığı | 4 | 2 | 2 |
| 9 | Morfologiya. Sözün tərkibi. Şəkilçilərin bölgüsü | 4 | 2 | 2 |
| 10 | Nitq hissələrinin təsnifi. Əsas nitq hissələri | 4 | 2 | 2 |
| 11 | Köməkçi və xüsusi nitq hissələri | 4 | 2 | 2 |
| 12 | Sintaksis. Söz birləşmələri. Sintaktik əlaqələr | 4 | 2 | 2 |
| 13 | Cümlə və onun növləri. Cümlə üzvləri. | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 14 | Sadə cümlənin tipləri | 4 | 2 | 2 |
| 15 | Mürəkkəb cümlə sintaksisi | 4 | 2 | 2 |
| Cəmi: | | 60 | 30 | 30 |

## Mövzular və onların məzmunu

### Fonetika

1.Fonetikanın ümumi məsələləri: Fonetika haqqında məlumat. Fonetikanın növləri. Fonetikanın əhəmiyyəti, başqa elmlərlə əlaqəsi.

Azərbaycan dilinin saitlər və samitlər sistemi**:** Səsin xüsusiyyətləri. Danışıq üzvləri. Fonem anlayışı. Saitlər və onların təsnifi. Samitlərin təsnifi prinsipləri.

2.Fonetik hadisələr və qanunlar: Fonetik hadisələr və əvəzlənmələr. Ahəng qanunu.

Heca. Vurğu. İntonasiya: Heca növləri və modelləri. Vurğunun xüsusiyyətləri, növləri. İntonasiyanın tərkib hissələri və tipləri.

3.Azərbaycan dilinin orfoepiya və orfoqrafiyası: Orfoepik norma. Tələffüz üslubları. Orfoepik qaydalar. Orfoqrafiyanın xüsusiyyətləri və prinsipləri. Orfoqrafiya qaydaları. [3], [5], [10], [13], [15]

### Leksikologiya

4.Leksikologiyanın predmeti. Söz leksik vahid kimi. Forma və məzmunca söz qrupları: Dilin leksik sistemi. Leksikologiyanın növləri. Çoxmənalılıq hadisəsi. Mənanın növləri, məna dəyişmələri. Omonimlik, sinonimlik, antonimlik.

5.Azərbaycan dilinin mənşəcə və üslubca leksikası: Xalis Azərbaycan sözləri. Sözalma prosesi. "Alınma söz" anlayışı. Alınmaların növləri. Ədəbi dil və onun əlamətləri. Danışıq dili. Funksional üslublar.

6.Azərbaycan dilinin aktiv və passivliyinə, istifadə dairəsinə görə leksikası: Dilin lüğət tərkibindəki dəyişikliklər. Tarixizmlər və arxaizmlər. Neologizmlər. Ümumişlək sözlər. Dialektizmlər. Arqo və jarqon. Peşə-sənət leksikası.

7.Azərbaycan dilinin onomastikası və frazeologiyası. Leksikoqrafiya: Onomastika və onun növləri. Xüsusi ad. Onomastik kateqoriyalar. Frazeologiya və onun mənbələri. Frazeoloji vahidlərin növləri. Lüğətlərin növləri, strukturu.

8.Söz yaradıcılığı: Lüğət tərkibinin zənginləşməsinin mənbə və üsulları. Leksik yolla sözyaratma. Morfoloji və sintaktik yolla söz yaradıcılığı. [2], [7], [9], [13], [15]

## Morfologiya

9.Morfologiya. Sözün tərkibi. Şəkilçilərin bölgüsü: Morfologiya qrammatikanın hissəsi kimi. Kök və şəkilçi morfemlər. Sözün quruluşca növləri. Sadə, düzəltmə, mürəkkəb sözlər. Şəkilçilərin vəzifəsinə, yazılışına, məhsuldarlığına, işlənmə mövqeyinə, milli mənşəyinə, nitq hissələrinə aidliyinə görə bölgüsü.

10.Nitq hissələrinin təsnifi. Əsas nitq hissələri: Nitq hissələri problemi. Nitq hissələrinin bölgüsü prinsipləri.

11.Köməkçi və xüsusi nitq hissələri. [4], [8], [12], [16]

## Sintaksis

12.Sintaksis. Söz birləşmələri. Sintaktik əlaqələr: Söz birləşmələrinin növləri. İsmi və feili birləşmələr. I, II və III növ təyini söz birləşmələri. Qeyri-təyini söz birləşmələri. Feili birləşmələrin növləri: məsdər, feili sifət və feili bağlama tərkibləri. Tabesizlik əlaqəsi. Tabelilik əlaqəsi, onun növləri: uzlaşma, idarə, yanaşma.

13.Cümlə və onun növləri. Cümlə üzvləri: Məqsəd və intonasiyaya görə cümlənin növləri. Nəqli, sual, əmr, nida cümlələri. Cümlə üzvlərinin bölgüsü: baş və ikinci dərəcəli üzvlər. Cümlənin baş üzvləri: mübtəda və xəbər. Cümlənin

ikinci dərəcəli üzvləri. Tamamlıq, təyin, zərflik. Cümlə üzvlərinin sırası. Cümlə üzvlərinin əlavəsi və xüsusiləşməsi. Həmcins üzvlər. Xitab, ara söz və ara cümlələr.

14.Sadə cümlənin tipləri: Baş üzvlərin iştirakı baxımından sadə cümlənin tipləri. Cüttərkibli və təktərkibli sadə cümlələr. Şəxssiz, qeyri-müəyyən və ümumi şəxsli cümlələr. Adlıq cümlələr. Bütöv və yarımçıq cümlələr. Müxtəsər və geniş cümlələr. Söz-cümlə.

15.Mürəkkəb cümlə sintaksisi: Tabesiz mürəkkəb cümlələr, bağlanma vasitələri, məna əlaqələri. Tabeli mürəkkəb cümlələr. Baş və budaq cümlələr. Baş və budaq cümlələrin bağlanma vasitələri. Tabeli mürəkkəb cümlələrin budaq cümləyə görə təsnifi. Mübtəda, xəbər, tamamlıq, təyin, zərflik budaq cümlələri, onların tipləri. [1], [11], [17]

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Bu kursda tədris fəaliyyətinin aşağıdakı formalarından istifadə edilir: mühazirələr, praktik məşğələlər, tələbələrin sərbəst işləri və kollokviumlar. Bundan başqa, aşağıdakı interaktiv formaların və tədris texnologiyalarının tətbiqi məqsədəuyğundur: portfolio – kursun problematikası üzrə materialların toplanılması və qiymətləndirilməsi üçün; şifahi ünsiyyətdə işlənmə prinsipinin mənimsənilməsi və məqsədəuyğun istifadə üçün vərdişlərin formalaşdırılması məqsədilə konkret fonetik vasitələrin fonoloji analizi; informasiya texnologiyaları – müxtəlif tətbiqi məsələlərin həlli üçün.

## Tədris resursları

Tədris avadanlığı və əyani vəsaitlər

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Azərbaycan dilinin fonetik sistemi. Səs və fonem
2. Fonetik hadisələr. Ahəng qanunu
3. Sözün leksik vahid kimi xarakteristikası
4. Dilin lüğət tərkibi
5. Söz yaradıcılığı dilçiliyin xüsusi bölməsi kimi
6. Morfologiya qrammatikanın tərkib hissəsi kimi. Sözün tərkibi: kök və şəkilçi morfemlər
7. Nitq hissələri problemi
8. Sintaktik əlaqələr və söz birləşmələri
9. Tabesiz mürəkkəb cümlələr, bağlanma vasitələri, məna əlaqələri
10. Tabeli mürəkkəb cümlələr

## Tövsiyə edilən ədəbiyyat

**Əsas**

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. IV h. Bakı, "Şərq-Qərb", 2007, 422 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. II h. Bakı, "Şərq-Qərb", 2007, 192 s.
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Fonetika, orfoepiya, orfoqrafiya. I h. Bakı, "Şərq-Qərb", 2007, 256 s.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III h. Bakı, "Şərq-Qərb", 2007, 279 s.

**Əlavə**

5. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, "Maarif", 1984, 388 s.

6. Bağırov Q. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. III h. Morfologiya. Bakı, “Maarif”, 1996, 300 s.
7. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı, “Nurlan”, 2005, 452 s.
8. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. 2 hissədə. Bakı, “Elm”, 2007; I h. 280 s.; II h. 352 s.
9. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, “Nurlan”, 2008, 444 s.
10. Xəlilov B. Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı, “Bakı Çap Evi”, 2013.
11. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, “Ünsiyyət”, 2000, 496 s.
12. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, “Elm və təhsil”, 2010.
13. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. 2 clddə. I c. Bakı, “Nurlan”, 2003, 450 s.
14. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. 4 hissədə. Bakı, “Nurlan”, 2005; I h. 352 s.; II h. 368 s.
15. Müasir Azərbaycan dili. 3 cilddə. I c. Bakı, “Elm”, 1978, 322 s.; „Çıraq“, 2010, 351 s.
16. Müasir Azərbaycan dili. II c. Bakı, “Elm”, 1980, 510 s.
17. Müasir Azərbaycan dili. III c. Bakı, “Elm”, 1981, 442 s.


**İnternet resursları**


dekanat.bsu.edu.ru/.../B1.V.OD.10%20Leksikologiya,%20 slovoobrazovanie%20i%20...

gf.nsu.ru/www/docs/IsachMif.pdf

isu.ru/filearchive/speciality/.../Б3.Б.2%20**Современный** %20**русский**%20**язык**.pdf

omsu.ru/file.asp?id=1043
tulpar.kpfu.ru/pluginfile.php/44834/course/.../рабочая%20**программа**%20**курса**.pdf
www.shekiami.az/.../Müasir%20Azərbaycan%20**dili**%20(**Pro**...
www.tspu.edu.ru/.../**Programm**y%202014.../B_3_V_05_2__Leksikologiya_342.pdf
www.volsu.ru/download.php?id=00000066051-1.pdf